# XX əsrin 30-cu illəri Azərbaycan musiqi həyatına bir nəzər

**Bəhrəmli Rövşanə (AMK)**
**Fakültə: Musiqi tarixi və nəzəriyyəsi**
**İxtisas: etnomusiqişünaslıq**
**Kurs: II**
**Elmi rəhbər: Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Akif Quliyev**

XX əsrin 30-cu illərində Azərbaycan musiqi mədəniyyəti yeni inkişaf mərhələsinə qədəm qoydu. Mövzunun aktuallığı ilk növbədə, göstərilən onillikdə milli musiqi mədəniyyətimizin inkişafı ilə bağlıdır. Digər tərəfdən, həmin dövr XX əsr musiqi tariximizə özünəməxsus inkişaf təmayyülləri ilə daxil olmuşdur ki, onlardan biri də peşəkar musiqi kollektivlərinin meydana gəlməsidir. Bu illər yeni əsərlərin və musiqi kollektivlərinin meydana gəlməsi, fəal yaradıcılıq mühitinin nailiyyətləri, bir sıra yeni tədbirlər ilə musiqi tariximizə daxil olmuşdur. Magistr dissertasiyamızın bir yarımfəslində bu onillik haqqında ayrıca araşdırma apardığımız üçün konfransa təqdim etdiyimiz məqaləni də bu mövzuya həsr etmişik.

XX əsrin 30-cu illərində Azərbaycan musiqi həyatında bu kimi əhəmiyyətli hadisələr baş vermişdir:

1. Yeni musiqi əsərlərinin yazılması və premyerası;
2. Yeni professional musiqi kollektivlərinin yaranması;
3. Azərbaycan Bəstəkarlar İttifaqının yaranması;
4. Moskva şəhərində Azərbaycan incəsənəti ongünlüyünün keçirilməsi.

Ötən əsrin 30-cu illərində milli musiqi tarixi üçün əsl sənət hadisəsi olan əsərlər yazılmışdır. İlk növbədə, Ü.Hacıbəylinin xalq çalğı alətləri orkestri üçün "Çahargah" və "Şur" fantaziyalarını, "Koroğlu" operasını qeyd edə bilərik. Azərbaycan musiqisinin klassiki Müslüm Maqomayevin "Nərgiz", Reynqold Qliyerin "Şahsənəm" (2-ci redaksiya) operalarının, Əfrasiyab Bədəlbəylinin "Tərlan" və "Qız qalası" baletlərinin yazılması da həmin dövrə təsadüf edir. Gənc bəstəkar nəslinin də ilk yaradıcılıq nailiyyətləri məhz bu dövrdən başlanğıc alır. Belə ki, Asəf Zeynallının romansları, Qara Qarayevin solist, xor və simfonik orkestr üçün "Könül mahnısı" kantatası, S.Rüstəmovun "Beş manatlıq gəlin" musiqili komediyası, "Tar məktəbi" dərsliyi də məhz həmin onilliyin yaradıcılıq məhsullarıdır. Həmin illərdə xalq musiqi, muğamlar, aşıq havaları da nota yazılmış, nəşr olunmuşdur.

1930-cu illərin musiqi tariximizdə xüsusi rolu da professional musiqi kollektivlərinin yaranmasından və fəaliyyətə başlmasından ibarətdir. Bu onillikdə aşağıdakı musiqi kolletktivləri yaradılmışdır:

1. İlk notlu xalq çalğı alətləri orkestri (1931)
2. Azərbaycan Dövlət xoru (1936)
3. Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı (1938)
4. Xalq çalğı alətləri amsamblı (1939)

Onların hər biri özünəməxsus yaradıcılıq yoluna və nailiyyətlərinə malikdir.

1938-ci ildə dahi bəstəkar, pedaqoq və ictimai xadim Ü.Hacıbəylinin təşəbbüsü ilə Azərbaycan Dövlət Filarmoniyası nəzdində Dövlət Mahnı və Rəqs ansamblı fəaliyyətə



başladı. Kollektivin təşkilində görkəmli balerina, SSRİ xalq artisti, o illərdə hələ gənc olan Q.Almaszadə ilə bərabər, kamança ifaçısı, dirijor və həvəskar bəstəkar Q.Salahovun da böyük xidməti olmuşdur. İlk illərdə kollektiv Ü.Hacıbəylinin müşayiətli xor üçün işlədiyi "Ay bəri bax", "Yallı", "Aman nənə", "Şikəstə", "Ləlli", "Sən gözəl", "Güloğlan" adlı xalq mahnı işləmələrini, "Komsomolçu qız", "Qızıl əsgər" mahnılarını, S.Rüstəmovun "Azərbaycan" suitasını, xalq rəqs işləmələrini ifa etmişdir. Görkəmli bəstəkarlar S.Rüstəmov, R.Hacıyev, C.Cahangirov, V.Adıgözəlov, H.Xanməmmədov, T.Hacıyev, R.Mirişli müxtəlif illərdə bu görkəmli peşəkar kollektivin bədii rəhbəri işləmişlər. 1958-ci il, iyulun 13-də ansambla "Əməkdar kollektiv" fəxri adı verilmişdir. Hazırda kollektivin və onun nəzdindəki Dövlət xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru xalq artisti, professor Ağaverdi Paşayevdir. Bəstəkarlar tərəfindən ansambl üçün xüsusi əsərlər, süitalar, rəqslər yazılmışdır.

Ansamblın tərkibi xalq çalğı alətləri ansamblından, solistlərdən, xordan və rəqs qrupundan ibarətdir. Bu kollektiv yarandığı dövrdən bu günə kimi xalq mahnı və rəqsləri ilə yanaşı, bəstəkar mahnılarını, süitalarını, rəqs kompozisiyalarını ifa etmişdir. Ansamblın geniş miqyaslı və uğurlu konsert, qastrol fəaliyyəti Azərbaycan milli musiqi mədəniyyətinin inkişafına müsbət təsir göstərmiş və xarici ölkələrdə musiqi mədəniyyətimizə şöhrət qazandırmışdır.

1934-cü ildə Azərbaycan Bəstəkarlar İttifaqının təşkil olunması musiqi tariximizin gələcək inkişafı yolunda parlaq mərhələ idi. ABİ-nin yaranması respublikamızda bəstəkar yaradıcılığının inkişafı, dəstəklənməsi, təbliği məqsədi daşı-

yırdı. Təşkilatın üzərinə konkret yaradıcılıq vəzifələri düşürdü ki, bu da musiqi ifaçılıq sənətinin inkişafına, xüsusilə, peşəkar kollektivlərin milli zəmində əsərlərlə təmin olunmasına müsbət təsir göstərirdi.

30-cu illərin daha bir tarixi tədbiri - 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyü musiqi incəsənətimizin əldə etdiyi nailiyyətlər haqqında geniş sənət hesabatı idi. Bu böyük mədəniyyət hadisəsində respublikamızı görkəmli bəstəkarlar, dirijorlar, ifaçılar, musiqi kollektivləri ilə bərabər, müxtəlif janrda yazılan əsərlər təmsil edirdi. Ongünlük musiqi nailiyyətlərini əks etdirən tarixi sənət hadisəsi kimi tədqiq olunmuşdur.